## *İQTİSADİYYAT*

**UOT:33.**

# AQRAR SAHƏDƏ SAHIBKARLIĞLN INKIŞAF ETDIRILMƏSINDƏ BEYNƏLXALQ LAYIHƏLƏRIN HƏYATA KEÇIRILMƏSI

***Həsənova Mehriban Cabiqr qızı, İsmayılova Gülnara Zeylim qızı,***
***Müşkiyev Zaur Arif oğlu***
***mehriban _adau.@gmail.com, ismayılova gülnaraa@gmail.com***
***muskiyev@mail.ru***
***Azərbaycan Dövlət Aqrar Universiteti***

**Xülasə:** *Ölkə iqtisadiyyatının digər sahələrində olduğu kimi,aqrar sahədə səmərəli sahibkarlıq fəaliyyətinin formalaşmasına və dayanıqlı inkişafına bir sıra amillər mühüm təsir göstərir.Onlardan biri də bu sahədə tətbiq edilən proqramlar və beynəlxalq layihələrdir.Bu layihələrin həyata keçirilməsinin əsas məqsədi, bazar münasibətləri şəraitində aqrar sahənin dayanıqlı inkişafına, kənd yerlərində yaşayan insanların təşəbbüskarlıq fəaliyyətinin genişlənməsinə müx-təlif maliyyə, texniki, texnoloji, iqtisadi və digər yardımların göstərilməsi, ümumilikdə daim diqqət və qayğı tələb edən bu sahəyə yönəldilmiş investisiya-ların həcminin artırılmasıdır.*

*Ölkə iqtisadiyyatının, o cümlədən aqrar sahənin dirçəldilməsi və inkişafı özəl bölmə, sahibkarlıq ilə sıx bağlıdır.Bazar münasibətləri şəraitində dövlətin aqrar siyasətinin– sahibkarlığı inkişaf etdirmək yolu ilə sənayenin və digər iqtisadi sahələrin xammala, əhalinin isə ərzaq məhsullarına olan tələbatını maksimum səviyyədə daxili istehsal hesabına təmin etməkdir.Bu siyasətin vəzifəsi isə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün etibarlı aqrar bazarın yaradılmasıdır.Xarici təcrübə göstərir ki, hər hansı bir ölkədə kənd təsərrüfatı və ərzaq məhsullarına tələbatın ən azı ¾ hissəsi daxili istehsal hesabına ödənilirsə, onda həmin ölkədə yürüdülən aqrar siyasəti etibarlı və düzgün hesab etmək olar.Aqrar münasibətlərin yeni məzmunda bazar tələblərinə uyğun formalaşdırılması və inkişafı müasir islahatlar şəraitində respublikamız qarşsında duran çox ciddi, mürəkkəb, həllini gözləyən məsələlərdir. Beləki, ölkə iqtisadiyyatının digər sahələrinin inkişafı daxili və xarici bazarın səmərəlilik prinsipi əsasında qurulması, həmçinin aqrar sahədə düzgün struktur siyasətinin aparılması ilə də sıx bağlıdır. Digər tərəfdən, aqrar sahədə sahibkarlıq mühitinin bazar standartlarına uyğun qurulması və bu istiqamətdə qabaqcıl xarici təcrübədən beynəlxalq layihələr vasitəsilə geniş istifadə edilməsi, sağlam aqrobiznes mühitinin yaradılmasını tələb edir. Bu mənada aqrobiznes mühitinin formalaşması və stimullaşdırılması üçün aqromarketinq və prolizinq üsulların-dan istifadə olunması, onların qarşılıqlı təsir mexanizminin qurulmasıda aktual məsələlərdən hesab oluna bilər.*

**Açar sözlər:** sahibkarlıq mühitinin formalaşması, kənd təsərrüfatına xarici investisiyaların cəlb edilməsi, aqrar sahənin dayanıqlı inkişafı, sahibkarlığın inkişafında aqrar layihələrin mövcud rolunun müəyyənləşdirilməsi.

**Ключевые слова:** формирование предпринимательской среды, привлечение иностранных инвестиций в сельское хозяйство, устойчивое развитие аграрной сферы, определение текущей роли аграрных проектов в развитии предпринимательства.

**Keywords:** formation of the entrepreneurial environment, attraction of foreign investments in agriculture, sustainable development of the agrarian sector, determination of the current role of Agrarian projects in the development of entrepreneurship.

Azərbaycan Respublikasında sahibkarlıq mühitinin formalaşması və inkişafı dövlət tərəfindən müntəzəm şəkildə dəstəklənir, sahibkarlara qayğı və diqqət ölkə rəhbərliyinin bilavasitə nəzarətindədir.Ümummilli liderimiz Heydər Əliyevin 2002-ci ilin aprel-may aylarında yerli və xarici sahibkarlarla görüş-məsi, bu görüşlərdə "Azərbaycan Prezidenti bütün sahibkarların himayədarıdır və dayağıdır" deməsi və nəhayət iş adamlarınını narahat edən problemlərin ara-dan qaldırılması üçün müvafiq tədbirlərin həyata keçirilməsi onlarda böyük ruh yüksəkliyi yaratmışdır.Bu gün həmin kurs ölkə Prezidenti İlham Əliyev tərəfin-dən uğurla davam etdirilir.Dövlət tərəfindən aqrar sahəyə qayğı göstərilməsi, bu sahənin cənab Prezidentin daim diqqət mərkəzində olması iqtisadiyyatın bu mü-hüm və strateji əhəmiyyətli sahəsində beynəlxalq layihələrin uğurla həyata keçirilməsinə təminat yaratmışdır.

Aqrar islahatların düzgün, ardıcıl və qabaqcıl təcrübəyə uyğun aparıl-ması,yeni kənd təsərrüfatı infrastrukturunun təşkili,həmçinin müasir texnolo-giyaların aqrar istehsalatda tətbiqi üçün beynəlxalq qurumların, bu sahədə inkişaf etmiş ölkələrin Azərbaycanda həyata keçirdikləri layihələr və proqramlar geniş istifadə olunur, həmçinin bu sahəyə sərmayəçilər cəlb edilir.[1]

Aqrar sahədə sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafına beynəlxalq layihələrin təsiri və tətbiqi xüsusiyyətlərinin öyrənilməsi əsasında, onun mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi, həmçinin bu layihələrin səmərəliliyinin yüksəldilməsi istiqamətini müəyyən etməklə, aşağıdakı vəzifələr qarşıya qoyulmuş və həll edilmişdir:

- aqrar sahibkarlığın formalaşması və inkişafında beynəlxalq layihələrin zəruriliyi və onun rolu;
- aqrar sahənin mövcud potensialından istifadə edilməsində və bu sahənin inki-şafında beynəlxalq layihələrin rolunun və onların səmərəliliyinin qiymətləndirilməsi;
- aqrar sahədə tətbiq edilən layihələrin sahənin inkişafına və sosial-iqtisadi nəticə-lərə təsirinin qiymətləndirilməsi;
- beynəlxalq layihələrdən səmərəli istifadənin aqrar sahibkarlığın inkişafına təsir mexanizminin təkmilləşdirilməsi.[4]

Aqrar sahədə beynəlxalq layihələrin aşağıda göstərilən yerlərdə istifadə edilməsi təklif edilir:

- aqrar sahibkarlıq subyektlərinin səmərəli iqtisadi mexanizminin formalaşdırılmasında, onun əsasında kənd təsərrüfatı istehsalının və sahibkarlıq fəaliyyətinin iqtsadi səmərəliliyinin təmin edilməsində istifadə edilə bilər;
- tətbiq edilən layihələrin kənd təsərrüfatı sahəsində məhsuldarlığın və iqtisadi səmərəliliyin yüksəldilməsi amili, qabaqcıl təcrübə və elmi yanaşmaların mühüm forması kimi istifadə edilməsi tövsiyə olunur. Bu layihələrin tətbiqi ilə bağlı əldə olunan yüksək nəticə və təkliflərdən onun tətbiqinə imkan verən aqrar sahənin inkişaf proqramlarında istifadə edilə bilər;
- torpaq mülkiyyətçilərinin və kiçik ölçülü təsərrüfatların müəyyən elmi əsaslara söykənməklə özlərinə inamın aşılanması və bu növ tədbirlərin həyata keçirilməsi ilə uğurlu nəticələrin əldə edilməsinə kömək göstərilə bilər;
- kənd təəsrrüfatında həyata keçirilən beynəlxalq və milli layihələrin düzgün tətbiqi sosial-iqtisadi nəticələrin yaxşılaşdırılmasına əhalinin gəlirlərinin artırılmasınaköməklik edə bilər;
- aqrar sahəyə dair bütün layihələrin tətbiqinin keyfiyyətinin artırılmasına, layi-hələrin tətbiqi dairəsinin genişləndirilməsinə, aqrar iqtisadiyyatın inkişafına və digər bu yönümlü tədbirlərə müsbət impuls verərək, sahibkarlıq fəaliyyətin səmərəliliyinin yüksəldilməsinə zəmin yaranar.[2]

Aqrar sahədə sahibkarlıq mühitinin bazar standartlarına uyğun qurulması və bu istiqamətdə qabaqcıl təcrübədən beynəlxalq layihələr vasitəsilə geniş isti-fadə edilməsi, sağlam aqrobiznes mühitinin yaradılmasını tələb edir. Bu mənada aqrobiznes mühitinin formalaşması və stimullaşdırılması üçün aromarketinq və prolizinq üsullarından səmərəli istifadə olunması, onların qarşılıqlı təsir mexanizminin qurulması da aktual məsələlərdən hesab oluna bilər.

Yaranmış mühitdən faydalanaraq ölkəmiz bir sıra nüfuzlu beynəlxalq təşkilatlar, mərkəzlər və agentliklərlə səmərəli əlaqələr qurmuşdur. Ölkəmiz müstəqillik əldə etdikdən sonra, üzləşdiyi bir sıra problemlərin həllində bu bankın müstəsna rolu olmuşdur. Həm də Azərbaycanın beynəlxalq təşkilatlardan aldığı maliyyə yardımlarının böyük bir hissəsi Dünya Bankının payına düşür. Aqrar sahədə həyata keçirilən beynəlxalq layihələr sahənin mövcud potensialından istifadə etməklə onun dayanıqlı və səmərəli inkişaf etdirilməsi, tor-paqların münbitliyinin artırılması, rəqabət qabiliyyətli məhsul istehsalının təmin olunması və aqrar istehsalçılarının ixrac fəaliyyətinin stimullaşdırılması, həmçinin emal və yeyinti sənayesinin xammala, əhalinin isə ərzaq məhsullarına olan tələbatının yerli mənbələr hesabına ödənilməsinə xidmət edir. [1]

### *Ədəbiyyat*


1. Aqrar islahatların nəticələri və dayanıqlı inkişaf problemləri (Respublika elmi, Vout"ansın materialları) Bakı 2006, 320 səh.
2. Alıyev İ.H.Aqrar sahənin inkişafının təkmilləşdirilməsi və regionlarda islahat-ların keyfiyyətcə səmərəli aparılması.Bakı,2004, 110 səh.
3. İbrahim İ.H. Aqrar islahatlar və sahibkarlığın inkişafı.Bakı,2005, 220 səh.
4. Aqrar sahənin təkmilləşdirilməsinin əsas istiqamətləri. Bakı,2016,220 səh.


## МЕЖДУНАРОДНАЯ ОРГАНИЗАЦИЯ ПО РАЗВИТИЮ ПРЕДПРИНИМАТЕЛЬСТВА В АГРАРНОЙ СФЕРЕ РЕАЛИЗАЦИЯ ПРОЕКТОВ


***Гасанова Мехрибан Джабир кызы, Исмаилова Гульнара Зейлим кызы,***
***Мушкиев Заур Ариф оглы***


### *Резюме*


Как и в других отраслях экономики страны, на формирование и устойчивое развитие эффективной предпринимательской деятельности в аграрной сфере существенное влияние оказывает ряд факторов. Одним из них являются программы и международные проекты, реализуемые в этой области. Основной целью реализации данных проектов является оказание в условиях рыночных отношений различной финансовой, технической, технологической, экономической и иной помощи устойчивому развитию аграрной сферы, расширению предпринимательской деятельности людей, проживающих в сельской местности, увеличение объема инвестиций, направляемых в эту сферу, что в целом требует постоянного внимания и заботы. Развитие экономики страны, в том числе аграрной, тесно связано с частным сектором, предпринимательством. Целью аграрной политики государства в условиях рыночных отношений – через развитие предпринимательства-является обеспечение потребности промышленности и других отраслей экономики в сырье, а населения в продуктах питания на максимальном уровне за счет внутреннего производства. А задачей данной политики является создание надежного аграрного рынка для реализации намеченных мер. Зарубежная практика показывает, что если в любой стране за счет внутреннего производства удовлетворяется хотя бы ¾ спроса на

сельскохозяйственную и продовольственную продукцию, то аграрную политику, проводимую в этой стране, можно считать надежной и правильной. Формирование и развитие аграрных отношений в новом контексте в соответствии с требованиями рынка- очень серьезные, сложные, ожидающие решения вопросы, стоящие перед нашей республикой в условиях современных реформ. Так, развитие других отраслей экономики страны тесно связано с построением внутреннего и внешнего рынка на основе принципа эффективности, а также с проведением правильной структурной политики в аграрной сфере. С другой стороны, построение предпринимательской среды в аграрной сфере в соответствии с рыночными стандартами и широкое использование передового зарубежного опыта в этом направлении посредством международных проектов способствуют созданию здоровой среды агробизнеса.

## INTERNATIONAL COOPERATION IN THE DEVELOPMENT OF ENTREPRENEURSHIP IN THE AGRARIAN SECTOR IMPLEMENTATION OF PROJECTS

***Hasanova Mehriban Jabir, Ismayılova Gulnara Zeylim***
***Mushkiyev Zaur Arif***

***Summary***

As in other sectors of the country's economy, a number of factors have a significant impact on the formation and sustainable development of effective entrepreneurial activity in the agricultural sector. One of them is the programs and international projects implemented in this area. The main purpose of the implementation of these projects is to provide various financial, technical, technological, economic and other assistance to the sustainable development of the agricultural sector, the expansion of entrepreneurial activity of people living in rural areas, an increase in the volume of investments directed to this area, which in general requires constant attention and care. Development of the country's economy, including the agrarian one, is closely connected with the private sector and entrepreneurship. The goal of the agrarian policy of the state in the conditions of market relations – through the development of entrepreneurship - is to meet the needs of industry and other sectors of the economy in raw materials, and the population-in food products at the maximum level due to domestic production. And the task of this policy is to create a reliable agricultural market for the implementation of the planned measures. Foreign practice shows that if at least three-quarters of the demand for agricultural and food products is satisfied in any country at the expense of domestic production, then the agrarian policy pursued in this country can be considered reliable and correct. The formation and development of agrarian relations in a new context in accordance with the requirements of the market are very serious, complex, pending issues facing our republic in the context of modern reforms. Thus, the development of other sectors of the country's economy is closely linked with the construction of the internal and external market based on the principle of efficiency, as well as with the implementation of the correct structural policy in the agricultural sector. On the other hand, the construction of an entrepreneurial environment in the agricultural sector in accordance with market standards and the widespread use of advanced.

***Rəyçi: dosent Ə.Ə.Əsgərov***
***Aqrobiznes və menecment kafedrasının 25 oktyabr 2022-ci il tarixli iclasın 02 saylı protokolu***
***Daxil olma tarixi 26 oktyabr 2022-ci il***